**Nərmin Faiq qızı Qasımzadə** [127]

# VİKTOR HÜQONUN "SƏFİLLƏR" ROMANINDA UŞAQ OBRAZLARI VƏ DƏRSLİKDƏ YERİ

**Giriş**. Yazımıza İsa Həbibbəylinin uşaq ədəbiyyatı haqqında fikirləri ilə başlamaq yerinə düşər. İsa Həbibbəyli məqalələrinin birində qeyd edir: "Dünyada uşaq dünyası qədər sadə, aydın, obrazlı, düşündürücü və pak bədii ədəbiyyat mənbəyi göstərmək çətindir. Uşaqlar böyüdükcə, mühitə və cəmiyyətə inteqrasiya olunduqca onların həyat hekayəsi, dramı, povesti və romanı başlayır" [5].

Dünya ədəbiyyatında uşaq obrazları zəngin və rəngarəngdir. Bu obrazların hər biri oxuculara müxtəlif həyat dərsləri və dəyərlər aşılayır. Uşaqların təxəyüllünün inkişaf etməsində uşaq obrazlarının əvəzsiz xidməti var. Dünya ədəbiyyatında bəzi uşaq obrazları xarakterik xüsusiyyətləri ilə kiçikdən böyüyə hər kəsin yaddaşında iz buraxır və ən nəcib duyğuları formalaşdırır. Uşaq xarakteri və taleyi ədəbiyyat üçün tez-tez müraciət edilən mövzulardan biridir.

Astrid Lindqrenin "Damda yaşayan Karlson" əsərinin qəhrəmanı Karlson özünə inamlı və macərapərəst bir obrazdır. Onun macəraları uşaqlara dostluğun əhəmiyyətini öyrədir. Amerikalı yazıçı Mark Tvenin "Tom Soyyerin macəraları" əsərinin baş qəhrəmanı Tom, sərgüzəştləri və cəsarəti ilə tanınır. Mark Tvenin "Fərasətli oğlan" hekayəsi 5-ci sinif ədəbiyyat dərsliyində şagirdlərə təqdim olunur. Tomun başına gələn hadisələri qələmə almaqla yazıçı uşaq taleyinə biganə qalmamışdır.

Dünyaca məşhur fransız yazıçı Viktor Hüqo da əsərlərində xaraktercə müxtəlif olan uşaq obrazları yaratmışdır. Ona dünya şöhrətini qazandıran əsərlərindən biri məhz "Səfillər" romanıdır. Romanı 1945-ci ildə qələmə almağa başlayan yazıçı bu qiymətli romanı 1962-ci ildə tamamlamış və ilk dəfə nəşr etdirmişdir. Romanda ümumbəşəri ideyalara, siyasi və sosial bərabərsizlik mövzusuna xüsusilə müraciət edilmişdir. Romanın qələmə alınmasında məqsəd dünyada baş verən ədalətsizliklərə etiraz səsini ucaltmaq, insanların mərhəmət və sevgi ilə doğru yolu tapacaqları ideyasını ötürməkdir. Əsərdə 1832-ci il Paris üsyanı təsvir edilir və bu cəmiyyətin ədalətsizliklərə qarşı mübarizə aparmaq istəyini əks etdirir. Bu üsyan insanların daha ədalətli və bərabər cəmiyyət uğrunda apardıqları mübarizənin bədii təsviridir. Bu roman vasitəsilə yazıçı insan və cəmiyyət problemlərinin ən dərin qatlarına enir. "Səfillər" romanında cəmiyyətin aşağı və yuxarı təbəqəsi qarşılaşdırılır. Əsərin mərkəzində kiçik bir cinayətə görə uzun müddət həbsdə qalan Jan Valjanın hekayəsi dayanır. Cəzası bitsə də, cəmiyyət onu qəbul etmir, lakin yepiskop Mirielin mərhəmətli davranışı onu yanlış yoldan çəkindirir, qəlbində mərhəmət toxumları əkilir və bununla da həyatını yaxşıya doğru dəyişir.

**Əsas hissə**. "Səfillər" romanında qaldırılan problemlərdən biri də uşaq taleyi və uşaq həyatıdır.Viktor Hüqonun şah əsəri olan "Səfillər" romanında yaradılan uşaq obrazları özünəməxsus xarakteri ilə fərqlənir. Mövcud cəmiyyətin küçələrə atdığı, yetim uşaqların - Kozetta və Qavroşun acınacaqlı taleyi əsərin "Kozetta" və "Balaca Qavroş" fəsillərində ürək ağrısı ilə qələmə alınmışdır. Kozetta ağır istismara məruz qalır və uşaqlığını yaşaya bilmir. Yazıçı Kozettanın alçaldılmasını və naqis xislətli insanlar tərəfindən zülm görməsini təsirli şəkildə təsvir edir. Balaca qızcığaz ona tapşırılan bütün çətin işləri görməsinə baxmayaraq, ona oynamağa, hətta vitrində gördüyü gəlinciyə tamaşa etməsinə də icazə verilmir. Kozettanın həyatı bir növ Azərbaycan xalq nağılının personajı Göyçək Fatmanın həyatı ilə eynidir. Jan Valjanın onu xilas etməsi ilə Kozettanın həyatı dəyişir. O, sevgi və qayğı ilə dolu bir mühitdə böyüyür. Kozetta obrazı uşaqların məsumluğunu simvolizə edir. Əsərdə toxunulan mövzulardan biri də ailə dəyərləri və ailə münasibətləridir. Yazıçı ailə mühitində uşaq obrazlarının təsvirini verməklə onların və ümumilikdə dövrün mənzərəsini təsvir etməyə çalışmışdır. Əsərdə diqqəti çəkən ailələrdən biri Tenardyerlər ailəsidir. Ailənin başçısı cənab Tenardyer fırıldaqçı, vicdansız və qəddar bir obrazdır. Öz azyaşlı oğlu Qavroşu küçəyə atır və onun yaşayışı ilə heç maraqlanmır. Qavroşdan balaca iki uşağını fırıldaqçı şəxslərə satır, onların sonrakı taleyi isə onu düşündürmür. Bütün bunlar ənənəvi ailə dəyərlərinə tamamilə ziddir.

"Səfillər" romanında yer alan Qavroş obrazı uşaq ədəbiyyatında əhəmiyyətli yer tutur. Paris küçələrində yaşayan, dövrün çətinlikləri ilə üzləşən balaca Qavroş bunlara baxmayaraq gülərüz, bacarıqlı, cəsur bir oğlandır. Onun həyat hekayəsi, mübarizə əzmi uşaqlara mərdlik, fədakarlıq ideyalarını aşılayır. Qorxubilməz balaca Qavroş acınacaqlı həyat sürsədə, vətəni onun üçün hər şeydən əzizdir. O, yaşına uyğun olmayan qəhrəmanlıq və şücaət göstərir, döyüş meydanına atılır xalqının azadlıq ideyalarını müdafiə edir. 1832-ci ildə Parisdə baş verən iğtişaşlar zamanı inqilabçılara qoşulan Qavroş, müstəqillik və azadlıq mübarizəsində qəhrəmancasına həlak olur. Bu obraz uşaq ədəbiyyatında çətin şəraitdə belə ümidini itirməyən, cəsur və fədakar uşaqların simvolu kimi yaddaşlarda qalmışdır.

Bu obrazlar vasitəsilə Hüqo, uşaqların cəmiyyətdəki yerini, onların məruz qaldığı ədalətsizlikləri, bu ədalətsizliklərə qarşı mübarizəsini nümayiş etdirir. Viktor Hüqonun "Səfillər" romanın bir hissəsi olan "Qavroş" ayrıca kitab halında nəşr edilmişdir. Viktor Hüqonun əsərlərinin əlavələri XIX əsrdən etibarən dərc edilmişdir. Hüqo Qavroşun timsalında ailə nəzarətindən uzaq qalan, kimsəsiz uşaqların həyatını təsvir edirdi: "Oğlan, zirzəmidə bitən solğun, xırdaca bir ot kimi, sevgi və nəvazişdən məhrum yaşayırdı. O, bundan nə əziyyət çəkir, nədəki kimisə günahlandırırdı. O heç bilmirdi ki, ata-ana necə olmalıdır" [5]. Verilən parçadan aydın olur ki, Qavroş ailə mühitindən, valideyn qayğısından uzaqdır. O, valideyn sevgisinin nə olduğunu bilmir, bu hiss ona yad olduğu üçün buna görə kimisə günahlandırmır.

[127] Bakı Dövlət Universiteti, magistrant. nerminqasimzade2002@gmail.com

7-ci sinif ədəbiyyat dərsliyində "Qavroş" əsəri "Uşaq aləmi, uşaq taleyi" adlı bölmənin yekununda qiymətləndirmə materialı kimi təqdim olunur.Bu bölmədə şagirdlər S.S.Axundovun "Nurəddin", Ənvər Məmmədxanlının "Qızıl qönçələr", Elçin Hüseynbəylinin "Nəvə", Mir Cəlalın "Bahar" əsərləri ilə tanış olmuşdurlar. Əsərlərin hər birində uşaq taleyinin müəyyən mərhələsindən bəhs olunur. Uşaqların mənəviyyatının zənginləşməsinə xidmət edəcək əsərlər dərslikdə yer almışdır. Bölmənin sonunda bu əsər şagirdlərin oxuduqları mətnləri daha yaxşı anlamaq və təhlil etmək bacarıqlarını inkişaf etdirmək məqsədilə dərsliyə əlavə edilmişdir. Dərslikdə "Qavroş" əsəri ilə bağlı müxtəlif tapşırıqlar və suallar yer alır ki, bu da şagirdlərin əsər üzərində düşünmələrinə və müzakirə etmələrinə şərait yaradır. Qiymətləndirmə aparmaq üçün metodik vəsaitdə təqdim olunan tapşırıqlarda əsərin ideyasının müəyyən edilməsi, Qavroş və Bahar obrazlarının venn dioqramında müqayisəsi, əsərin davamının şagirdlər tərəfindən davam etdirilməsi tələb edilir. Dərslikdə əsərdən təqdim edilən kiçik parçada Qavroşun obrazı bir neçə məqamla oxucu üçün aydınlaşır. Qavroş yağışlı havada küçədə qarşılaşdığı kimsəsiz uşaqlara sahib çıxır, dəlləkdən fərqli olaraq onlara mehribanlıqla yanaşır. Darvazanın qarşısında soyuqdan titrəyən qızcığazla qarşılaşır, boynundakı şalı çıxarıb qıza verir. Qız təəccüblə ona baxdı və dinməzcə hədiyyəni qəbul etdi. Qavroş isə soyuqdan daha çox büzüşdü. O, dilənçi qızın yaylığa bərk-bərk büründüyünü görüb əlavə etdi:
–Heç olmasa, ona isti olar. Lap elə bil kürk geyinib [1, s. 143]. Bu hissəyə nəzər saldıqda Qavroşun mərhəmətli və xeyirxah insan olduğunun şahidi oluruq. Özünün də ac və soyuqdan üşüməsinə baxmayaraq küçədə gördüyü kimsəsiz uşaqlara qayğı göstərir, cibindəki son pulu ilə aldığı çörəyin böyük parçasını yanındakı uşağa verir, onu yemək üçü ürəkləndirir. Düşdüyü çətin vəziyyətə baxmayaraq Qavroş içindəki yaxşılığı itirmir. Ətrafa bu mərhəmət və yaxışılıq toxumlarını səpir, bir gün bu səfalətin bitəcəyinə ümid edir.

**Nəticə**. "Səfillər" romanı bütün yaş qruplarını əhatə edən ümumbəşəri romandır. Əsərdə qaldırılan problemlər bu gün üçün də aktuallığını qoruyur. Romanda təqdim olunan uşaq obrazları xarakter və mənəvi keyfiyyətləri ilə seçilir. Əsərin tədrisə cəlb edilməsi, müəllimlər tərəfindən əsərin parçalarınım sinifdənxaric oxu materialı kimi şagirdlərə tövsiyə olunması məqsədəuyğun hesab edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Ədəbiyyat (7-ci sinif). Müəllim üçün metodik vəsait. Bakı, 2022, 208 s.
2. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2022, 208 s.
3. Hüqo V. Səfillər, 3 cilddə. Bakı: Öndər, 2005.
4. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı (Dərslik). Bakı: ADPU, 2007, 535 s.
5. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/5754-usaq-dunyasinda-edebiyyat-ve-usaq-edebiyyati-dunyasi
6. https://zardob.blogspot.com/2018/10/huqo-qavrosh.html
7. https://teref.az/kose/204219-sefiller-eserinde-aile-deyerleri.html



**Key words:** Victor Hugo, Gavrosh, Cosette,children's literature, novel

**Ключевые слова:** Виктор Гюго, Гаврош, Козетта, детская литература, роман


**Child character in Victor Hugo's "Les miserables" and their place in the textbook**


**Summary**

World children's literature serves to broaden children's knowledge and worldview, develop their creativity, and instill moral values by presenting works on various topics. The topics that contribute to the development of children's morality can be grouped as follows: family values and friendship, love for nature, historical periods and personalities, adventure and travel, and so on.

Victor Hugo, a prominent French writer of the 19th century and one of the well-known figures of the Romantic literary movement, primarily wrote for adults. However, children hold a significant place in his works. Particularly, the child characters such as Gavroche, Cosette, Azelma, and Jill Normand from his novel Les Misérables have left an unforgettable mark on world literature. Hugo depicted children as the most vulnerable and defenseless members of society, showing the difficulties and injustices they faced. The writer, who considered children as the mirror of society, continued this idea throughout his creative career. The inclusion of the excerpt Gavroche from Les Misérables in the 7th-grade literature textbook is not accidental. The child characters depicted in the work act as ambassadors of universal ideas. Despite being written two centuries ago, the issues raised in the novel remain relevant problems that society still struggles with today.


**Детские характеры в романе Виктора Гюго «Несчастные» и их место в учебнике**


**Резюме**

Мировая детская литература служит для расширения знаний и мировоззрения детей, развития их творчества и прививания моральных ценностей, представляя произведения на различные темы. Темы, способствующие развитию нравственности детей, можно сгруппировать следующим образом: семейные ценности и дружба, любовь к природе, исторические эпохи и личности, приключения и путешествия и другие.

Виктор Гюго, выдающийся французский писатель XIX века, один из известных представителей литературного течения романтизма, писал преимущественно для взрослых, однако в его произведениях детям отведено важное место. Особенно, детские образы, такие как Гаврош, Козетта, Азельма и Жиль Норман из его романа Отверженные, оставили незабываемый след в мировой литературе. Гюго изображал детей как самых уязвимых и беззащитных членов общества, показывая трудности и несправедливости, с которыми они сталкиваются. Писатель, считавший детей зеркалом общества, продолжал эту идею на протяжении всей своей творческой карьеры. Включение фрагмента Гаврош из Отверженных в учебник литературы для 7-го класса не случайно. Детские образы, изображенные в произведении, выступают как

носители универсальных идей. Несмотря на то, что роман был написан два века назад, поднятые в нем проблемы остаются актуальными и в настоящее время, и с ними продолжает бороться общество.

**RƏYÇİ: dos. N.Əfəndiyeva**